

## ORXAN - İGİDXAN, ƏRXAN

**(19.01.1992 -27.09.2020)**

*Vətən müharibəsi şəhidi Orxan Allahverdi oğlu Yusubovun nurlu xatirəsinə*

Min illərlə yaşadı, yaşayacaq cəsur can,
Boşuna axmayacaq, axıdacaq azad qan,
Ölkəni etdi, hələ edəcək hür, firavan,
Əzbərdir dilimizdə, Orxan, İgid xan, Ərxan.

Yaşayır Orxan adı göstərilən hünərtək,
Kökü Atillalardan gələn qorxmaz Hun ərtək,
Düz 30 ildə hər an gözlənilən Zəfərtək,
Ayımız, ilimizdə, Orxan, İgidxan, Ərxan.

Orxan adı yüzillik üçrəngli bir işıqtək,
Qəhrəmanlar yetirən bu yurda yaraşıqtək,
Qəhrəmanlıq dastanı deyən ozan, aşıqtək,
Yaşayar qəlbimizdə : Orxan, İgid xan, Ərxan.

Bir nakəs endirəmməz onun şanlı bayrağın,
Orxan bayraqdarıdır alınmaz Qarabağın,
Ölməz Şəhidi olub alovlanan ocağın,
Taxt qurub könlümüzdə, Orxan, İgid xan, Ər xan.

Yazmağa qələmimiz, danışmağa dilimiz,
Düşmənə endirməyə yumruğumuz, əlimiz,
Qarabağtək yaddaşda əbədi, əzəlimiz,
Didədir gözümüzdə, Orxan, İgid xan, Ər xan.

Aylar ilə müqəddəs nəşin dondu, əridi,
Nəşin tapıldı, ümid şamtək söndü, əridi,
Təskinlikdi bu bizə, Orxan Şəhid nər idi,
Yaşayır izimizdə, Orxan, İgid xan, Ər xan.

Fəxr elə, O, yolunda keçdi şirin canından,
Qələbəni pay verdi, keçdi Zəfər anından,
Fəxr elə Azərbaycan, var Orxantək Qəhrəman,
Olacaqdır hər zaman,
Olacaqdır hər bir an, Orxan, İgid xan, Ərxan!

Sevindik Nəsiboğlu *26.06.2021*



Kredo.- 2021.- 18 noyabr.- S.12.